***Məleykə MƏMMƏDOVA***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu Mifologiya şöbəsi*
*e-mail: meleykememmed1@gmail.com*
*ORCID № 0000-0001-7714-4668*
https://doi.org/10.59849/2309-7922.2025.2.81

# DOĞUM RİTUALI ƏNƏNƏLƏRİ: AZƏRBAYCAN VƏ ÖZBƏK FOLKLORU KONTEKSTİNDƏ

**Xülasə**

Doğum, insan həyatının ən mühüm keçid mərhələlərindən biri olaraq müxtəlif xalqların mədəni inancları əsasında formalaşmışdır. Azərbaycan və özbək xalq mədəniyyətlərində doğum prosesinə dair rituallar həm arxaik inancları, həm də islamın təsirini özündə ehtiva edir. Bu məqalədə hər iki xalqın doğumla bağlı ənənəvi praktikaları, inancları və mərasimləri müqayisəli yanaşma əsasında təhlil edilir.

Azərbaycan və özbək mədəniyyətlərində doğum yalnız bioloji hadisə kimi deyil, həm də sosial və mənəvi keçid prosesi kimi dəyərləndirilir. Doğum ritualları cəmiyyətin quruluşunun, inanc sistemlərinin və mədəni dəyərlərin mühüm göstəricilərindən biridir. Hər iki xalqda doğumdan sonrakı ilk qırx gün ərzində ana və körpənin qorunmasına yönəlik xüsusi qaydalar tətbiq olunur. Bu müddətdə ana ev şəraitində istirahət edir, xarici aləmdən təcrid olunur və yalnız ailə üzvləri ilə ünsiyyətdə olur. Bununla yanaşı, körpənin sağlamlığının qorunması məqsədilə dua oxunması, nəzərdən qorunması və mənfi enerjilərdən təmizlənməsi kimi mənəvi ayinlər mühüm yer tutur. Eyni zamanda, Azərbaycanda və Özbəkistanda doğum mərasimləri sosial həmrəyliyi gücləndirən ənənələr və mərasimlərlə müşayiət olunur.

Aparılan tədqiqat doğum rituallarının mədəni kontekstdəki funksiyalarını və onların ictimai quruluş üzərindəki təsirlərini araşdıraraq Azərbaycan və özbək xalq mədəniyyətlərində mövcud olan oxşarlıqları və fərqlilikləri üzə çıxarır. Keçmişdən günümüzə ötürülərək yaşadılan doğum ritualları bir tərəfdən ümumtürk mədəniyyətinin izlərini əks etdirir, digər tərəfdən isə yerli xüsusiyyətlər bu mədəni zənginliyi daha da aydın şəkildə ortaya qoyur.

***Açar sözlər:*** *Azərbaycan, Özbəkistan, mədəniyyət, doğum, ritual.*

***Maleyka MAMMADOVA***

## BIRTH RITUAL TRADITIONS: IN THE CONTEXT OF AZERBAIJANI AND UZBEK FOLKLORE

**Abstract**

Childbirth is one of the most significant rites of passage in human life and has been shaped by the cultural beliefs of various peoples. In Azerbaijani and

Uzbek folk cultures, the rituals surrounding childbirth encompass both ancient traditions and the influences of Islam. This article examines the traditional practices, beliefs, and rituals associated with childbirth in these two cultures from a comparative perspective.

In Azerbaijani and Uzbek societies, childbirth is regarded not merely as a biological phenomenon but also as a social and spiritual transition. Birth rituals serve as important reflections of social organization, belief systems, and cultural values. In both cultures, a special protective period is observed for the mother and infant during the first forty days after birth. During this time, the mother remains at home, isolated from the outside world, and interacts only with close family members. Furthermore, spiritual practices such as the recitation of prayers, protection from the evil eye, and cleansing from negative energies play a central role in safeguarding the newborn's well-being. In addition, childbirth ceremonies in Azerbaijan and Uzbekistan are accompanied by traditions and celebrations that reinforce social cohesion.

This study explores the functions of birth rituals within their cultural contexts and their impact on social structures, highlighting both the similarities and differences between Azerbaijani and Uzbek folk cultures. While birth rituals, transmitted from generation to generation, embody shared elements that bear traces of Turkic cultural heritage, local variations further accentuate the richness of this cultural tradition.

***Keywords:*** *Azerbaijan, Uzbekistan, culture, childbirth, ritual.*

***Малейка МАММЕДОВА***

**ТРАДИЦИИ РИТУАЛОВ РОЖДЕНИЯ: В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСКОГО И УЗБЕКСКОГО ФОЛЬКЛОРА**

**Аннотация**

Рождение ребёнка является одним из важнейших переходных этапов в жизни человека и формировалось под влиянием культурных верований различных народов. В азербайджанской и узбекской народной культуре родильные обряды объединяют в себе как архаические представления, так и исламские традиции. В данной статье традиционные практики, верования и ритуалы, связанные с рождением ребёнка у обоих народов, рассматриваются в сравнительно-аналитическом аспекте.

В азербайджанской и узбекской культурах рождение понимается не только как биологический факт, но и как социально-духовный переходный процесс. Родильные обряды выступают важным отражением социальной организации, системы верований и культурных ценностей. В обеих культурах в течение первых сорока дней после родов для матери и младенца устанавливается особый режим охраны. В этот период мать остаётся дома, изолирована от внешнего мира и общается преимущественно с членами семьи. Существенное место занимают духовные практики, направленные на защиту

здоровья ребёнка: чтение молитв, обереги от сглаза и очищение от негативной энергии. Кроме того, в Азербайджане и Узбекистане родильные церемонии сопровождаются обычаями и праздничными мероприятиями, способствующими укреплению социальных связей.

Настоящее исследование анализирует функции родильных обрядов в культурном контексте и их воздействие на социальную структуру, выявляя сходства и различия в азербайджанской и узбекской народной культуре. Передаваемые из поколения в поколение родильные ритуалы содержат общие элементы, отражающие тюркское культурное наследие, в то время как локальные различия ещё более подчёркивают богатство и многогранность данной традиции.

***Ключевые слова:*** *Азербайджан, Узбекистан, культура, роды, ритуал.*

## GİRİŞ

Doğum, insan həyatının ən mühüm keçid mərhələlərindən biri olmaqla yanaşı, toplumların mədəni kodlarını və inanc sistemlərini əks etdirən mərasimlərlə müşayiət olunur. Türk xalqlarının mədəniyyətində doğumla bağlı adətlər əsrlər boyunca formalaşmış, qədim inanclarla islam dünyagörüşünün sintezindən keçərək günümüzədək davam etmişdir. Azərbaycan və özbək xalqları ortaq türk mədəni irsini paylaşan toplumlardandır və bu xalqlarda doğum mərasimləri həm oxşar, həm də fərqli yönləri ilə diqqət çəkir.

Doğumla bağlı mərasimlər, doğumdan öncəki hazırlıq mərhələsindən başlayaraq, doğum anı və doğum sonrası mərhələlərdə müəyyən qaydalar əsasında icra edilir. Bu mərasimlərin başlıca məqsədi ananı və körpəni qorumaq, doğum prosesinin sağlam və problemsiz keçməsini təmin etmək, eyni zamanda yeni doğulmuş uşağın ictimai qəbulunu möhkəmləndirməkdir. Doğuma dair inanclar yalnız fərdi hadisəni deyil, həm də toplumun ümumi dünyagörüşünü ifadə edir və sosial həmrəyliyi gücləndirən mühüm amillərdən biri kimi mövcudluğunu qoruyur.

**Məqsəd:** Bu araşdırmanın əsas məqsədi Azərbaycan və özbək xalq mədəniyyətlərində doğumla bağlı mərasimləri müqayisəli şəkildə təhlil etmək, onların sosial, mədəni və dini kontekstini üzə çıxarmaqdır.

**Metod:** Tədqiqat müqayisəli folkloroloji yanaşmaya əsaslanır. İşdə Azərbaycan və Özbəkistanın xalq mədəniyyətinə dair etnoqrafik materiallar təhlil olunmuş, folklor araşdırmaları, şifahi mətnlər və elmi mənbələrdən istifadə edilmişdir. Müxtəlif bölgələrdə tətbiq olunan doğum mərasimlərinin oxşar və fərqli cəhətləri araşdırılmış, onların sosial və dini məzmunu şərh edilmişdir. Bundan əlavə, keyfiyyət yönümlü tədqiqat çərçivəsində ədəbiyyat icmalı aparılmış, xalq hekayələri və mərasimlərə dair sahə materialları dəyərləndirilmiş, mövzu ilə bağlı folklorik motivlər elmi təhlilə cəlb olunmuşdur. Ənənəvi praktikaların və mərasimlərin müasir dövrdəki yeri və aktuallığı da ayrıca diqqət mərkəzinə çəkilmişdir.

**Nəzəri çərçivə**

Bu araşdırmada doğum mərasimlərini anlamaq üçün bir neçə nəzəri yanaşma birlikdə tətbiq olunur. Doğum kimi fundamental həyat hadisəsinin insanlar tərəfindən necə qəbul və təcrübə edildiyini dərk etmək, birbaşa olaraq cəmiyyətin quruluşu, mədəni inancları və dini təsəvvürləri ilə bağlıdır. Tədqiqatın nəzəri bazası folklor, ritual nəzəriyyəsi və sosial quruluş nəzəriyyələri ətrafında formalaşdırılmışdır.

***Folklorik yanaşma:*** Folklor xalqın mədəni irsini, dünyagörüşünü və ənənələrini əks etdirən əsas elmi sahələrdən biridir. Folklorik mərasimlər xalqın inanclarını, dəyərlərini və sosial münasibətlərini simvolik formada ifadə edir. Bu baxımdan doğumla bağlı mərasimlər toplumların dünyaya baxış bucağını əks etdirən mühüm göstəricilərdir (1, 56). Azərbaycan və özbək xalqlarının doğum mərasimləri gündəlik həyatın, qorxuların, ümidlərin və mənəvi dəyərlərin təcəssümü kimi çıxış edir. Bu mərasimlərin bir qismi qədim türk və şaman inanclarına əsaslansa da, digər qismi islamın təsiri ilə formalaşmışdır. Tədqiqatda folklorun bu funksiyasına əsaslanaraq, mərasimlərin kollektiv şüurdakı yeri xüsusi vurğulanır.

***Ritual nəzəriyyəsi:*** Ritual nəzəriyyəsi sosial quruluşların, dini təcrübələrin və inancların anlaşılmasında mühüm konseptual çərçivə təqdim edir. Viktor Törnerin "sosial keçid" nəzəriyyəsi göstərir ki, mərasimlər fərdlərin toplumdakı yerini möhkəmləndirir, sosial münasibətləri yenidən yaradır və ictimai bağları gücləndirir. Doğum mərasimləri fərdin həyatında mühüm bir keçidi simvolizə edir; bu mərasimlər fərdin sosial qəbulunu və kimliyini təsdiq edir (10, 80). Azərbaycan və özbək toplumlarında doğum yalnız fərdi hadisə deyil, həm də ictimai həmrəylik və birgəlik aktı kimi dəyərləndirilir. Bu baxımdan doğum mərasimləri tipik "keçid ritualı" funksiyası daşıyır. Hamiləlik və doğum prosesi fərdlərin sosial rollarını yenidən müəyyənləşdirir, onları ictimai gözləntilərlə uyğunlaşdırır (10, 92). Xüsusilə doğum sonrası 40 gün ərzində ana və körpənin təcrid edilməsi kimi inanclar bu nəzəriyyənin izah etdiyi ənənələrdəndir.

***Sosial quruluş və ənənəvi inanc sistemləri:*** Doğum mərasimləri sosial quruluşu və ictimai normaları möhkəmləndirən əsas vasitələrdəndir. Emil Dürkheym dini mərasimləri və ritualları cəmiyyətin bütövlüyünü təmin edən və ictimai nizamı qoruyan mühüm mexanizmlər kimi izah etmişdir (2, 112). Azərbaycan və özbək mədəniyyətlərində doğumla bağlı mərasimlər, sosial dəyərləri və mənəvi prinsipləri cəmiyyətin yeni üzvlərinə ötürən əhəmiyyətli funksiyaya malikdir. Eyni zamanda doğum mərasimləri gender rollarının və ana-uşaq münasibətlərinin formalaşdığı mühüm sosial sahələrdir. Azərbaycanda doğum sonrası qadına xüsusi qayğı göstərilməsi, Özbəkistanda isə qadının analıq rolunun cəmiyyət tərəfindən yüksək dəyərləndirilməsi bu ənənələrin nümunələrindəndir. Bu baxımdan, doğum mərasimlərinin ailə institutunun funksionallığını və cinsiyyət rollarının möhkəmlənməsini təmin edən mühüm faktor olduğu görünür.

***Keçid mərasimləri: Arnold van Gennep:*** Arnold van Gennep özünün məşhur "Keçid mərasimləri" əsərində fərdlərin həyatında yeni mərhələyə keçid zama-

nı müəyyən mərasimlərin icra olunduğunu vurğulamışdır. O, keçid mərasimlərini üç əsas mərhələyə ayırır: ayrılma (separation), keçid/transformasiya (liminality) və inteqrasiya (incorporation) (11, 25-42).

- **Ayrılma (Separation):** Bu mərhələdə fərd əvvəlki kimliyindən uzaqlaşır. Doğumla bağlı mərasimlərdə hamilə qadının ana olmamış kimliyindən ayrılması təmizlənmə və hazırlıq mərasimlərində öz əksini tapır.
- **Keçid (Liminality):** Burada fərd transformasiya dövrünü yaşayır. Doğum prosesi qadının həm bioloji, həm də sosial baxımdan yeni kimliyə sahib olması ilə nəticələnir.
- **İnteqrasiya (Incorporation):** Doğum sonrası qadın yeni kimliyi – ana statusu ilə yenidən cəmiyyətə qayıdır. Xüsusilə 40 gün boyunca ana və körpəyə dair icra olunan mərasimlər bu mərhələnin ayrılmaz hissəsidir. Bu nəzəri yanaşma Azərbaycan və özbək xalqlarında doğum mərasimlərinin strukturunu anlamaqda mühüm konseptual baza təqdim edir.

***İslamın təsiri və dini yozumlar:*** İslam dini Azərbaycan və Özbəkistan xalqlarında doğum mərasimlərinin formalaşmasında mühüm rol oynamışdır. İslamda doğum müqəddəs hadisə sayılır və bununla bağlı xüsusi dini adətlər mövcuddur. Bu ənənələr dini dəyərlərlə cəmiyyət həyatının sintezini əks etdirir. Azərbaycan və özbək mədəniyyətlərində doğumdan sonra körpənin qulağına azan və iqamə oxunması, uşağa mənalı ad verilməsi geniş yayılmışdır. Körpənin ilk saçının kəsilməsi, ilk diş çıxarma mərasimləri və "qırx çıxarma" ənənəsi də hər iki xalq arasında mühüm yer tutur. Bununla yanaşı, xalq inanclarına söykənən qoruyucu dualar, musqa və nəzərliklərin istifadəsi də ənənəvi dini təcrübənin bir hissəsidir. Beləliklə, Azərbaycan və özbək xalqlarında doğum mərasimləri xalq inancları ilə islam ənənələrinin sintezini əks etdirərək həm mədəni, həm də dini bütövlüyün bir göstəricisinə çevrilmişdir.

**1. Doğumdan Əvvəlki Praktikalar: Sosial və Mədəni Kontekst**

Azərbaycan və özbək xalqları arasında hamiləlik dövrü müqəddəs mərhələ kimi dəyərləndirilir və ana namizədinin qorunmasına xüsusi diqqət yetirilir. Bu mərhələdə icra olunan mərasimlərin əsas məqsədi ananın və körpənin sağlamlığını qorumaq, mənfi təsirlərdən və "nəzər"dən uzaq tutmaqdır.

Azərbaycan mədəniyyətində hamilə qadınların müəyyən davranışlardan çəkinməli olduqlarına inanılır. Məsələn, qara pişik görmək və ya kəsici alətləri gecə açıq qoymaq uğursuzluq gətirə bilər. Hamilə qadının pis xəbər eşitməsi və ya qorxudulması, körpənin sağlamlığına mənfi təsir göstərə biləcək hal sayılır. Oxşar şəkildə, özbək xalq inanclarında da hamilə qadının gecələr tək qalmaması gərəkli hesab edilir; çünki bu dövrdə mifoloji varlıqların qadına zərər verə biləcəyi düşünülür (İ-4).

Hər iki mədəniyyətdə hamilə qadının qidalanmasına xüsusi diqqət yetirilir. Bu dövrdə müəyyən qidaların yeyilməsi və ya onlardan çəkinilməsi zəruri sayılır. Xüsusilə şirin yeməklərin uşağın sakit və mehriban təbiətli olmasına, acı qidaların isə sərt xasiyyətli böyüməsinə səbəb olacağına inanılır (4, 648-650).

Övlad sahibi olmaq, həm fərdi, həm də ictimai baxımdan mühüm hadisə sayılır və evliliyin təbii nəticəsi kimi qəbul olunur. Bu proses yalnız bioloji hadisə deyil, həm də mədəni və sosioloji məna daşıyır. Ənənəvi cəmiyyətlərdə, xüsusilə patriarxal sistemin hakim olduğu mühitlərdə övlad sahibi olmaq qadın üçün mühüm status göstəricisidir. Analıq qadına sosial kimlik qazandıran əsas rollardan biri kimi qiymətləndirilir və qadın kiçik yaşlarından bu rola hazırlanır. Xüsusilə kənd yerlərində və ənənəvi sosial quruluşun daha qabarıq göründüyü mühitlərdə doğum və analıq anlayışları qadın üçün həm bioloji, həm də sosial məsuliyyət sahəsi təşkil edir. Bu baxımdan doğumdan əvvəlki mərhələ yalnız fərdi təcrübə deyil, həm də qadına cəmiyyətin yüklədiyi rollar və gözləntilər çərçivəsində formalaşan kollektiv hadisədir. Özbək mədəniyyətində də uşağa sahib olmaq yalnız valideynlər üçün deyil, eyni zamanda geniş ailə və sosial mühit baxımından böyük əhəmiyyət daşıyır və bu proses müxtəlif ənənəvi praktikalarla müşayiət olunur.

**1.1. Ana namizədinin uşaq sahibi olması üçün qəbul edilən ənənəvi tədbirlər**

Türk xalqlarının inanclarında uşaq sahibi olmama vəziyyəti yalnız fərdi məsələ kimi deyil, həm də sosial və mədəni problem olaraq dəyərləndirilmişdir. Uşaq sahibi olmayan qadın və kişilər, toplum yaddaşında tez-tez "bar verməyən ağac" metaforası ilə təsvir edilmiş və bu vəziyyət xalq ədəbiyyatında dastan, nağıl və hekayələrdə geniş işlənmiş motivə çevrilmişdir (12, 68). Türk dünyasının bir çox bölgələrində olduğu kimi, Azərbaycan və özbək mədəniyyətlərində də uşaq sahibi olmamaq xoş qarşılanmamış, bu məsələ fərd, ailə və cəmiyyət tərəfindən həll edilməli olan bir problem kimi qiymətləndirilmişdir.

Anadolu mədəniyyətində uşaq sahibi olmayan şəxslər üçün "kısır", Azərbaycanda "sonsuz", özbək mədəniyyətində isə qadınlar üçün "bedav", "baksi", "tuğmaz", "uruksuz" və "kısır" kimi müxtəlif terminlər istifadə edilmişdir. Bu terminlər, cəmiyyətdə qadının doğurqanlıqla bağlı rolunu və mövcud ənənəvi baxışı əks etdirir. Eyni zamanda, bu təsnifat fərdlər üzərində psixoloji təzyiq yaradır və uşaq sahibi olmamağın yalnız fərdi deyil, həm də sosial çatışmazlıq kimi qəbul olunduğunu göstərir (6, 436; 8, 348). Cəmiyyətdə yayılmış bu baxışa görə, uşaq sahibi olmayan cütlüklərə dəstək olmaq və onların övlad sahibi olmasını təmin etmək məqsədilə müxtəlif ənənəvi üsullara müraciət edilmişdir. Oxşar inanclar və tətbiqlər özbək mədəniyyətində də müşahidə olunur. Xüsusilə doğurqanlığı artırmaq məqsədilə ənənəvi xalq biliyinə əsaslanan bəzi qidalanma və həyat tərzi tövsiyələri formalaşmışdır. Məsələn, özbək cəmiyyətində soyuq suya tez-tez girməmək və turş qidaları həddindən artıq yeməmək kimi vərdişlərin qadının hamilə qalma ehtimalını artıracağına inanılır (9, 131). Bu səbəbdən, hamilə qalmaq istəyən qadına ilk növbədə belə davranışlardan çəkinməsi tövsiyə edilir. Bundan əlavə, doğurqanlığı artırdığı güman edilən müəyyən qidaların yeyilməsi, bəzi duaların oxunması və mənəvi mərasimlərin icrası kimi praktiki üsullar da cəmiyyət arasında geniş yayılmışdır. Bu cür ənənəvi inanclar yalnız fərdin doğurqanlıq qabiliyyətini artırmağa yönəlmiş cəhd deyil, həm də sosial həmrəyliyin göstəricisi

kimi qiymətləndirilə bilər. Uşaq sahibi olmağın yalnız fərdi təcrübə deyil, həm də ailədaxili statusa və sosial qəbul səviyyəsinə təsir edən bir amil olduğu nəzərə alınarsa, bu praktikalar ənənəvi mədəniyyətin vacib hissəsi olaraq qalır.

Cəmiyyətlərin doğurqanlıq məsələsinə verdiyi əhəmiyyət yalnız fərdi fenomen deyil, həm də sosial quruluşu formalaşdıran mühüm elementdir. Yeni evlənmiş cütlüklərdən qısa müddət ərzində övlad sahibi olmaları gözlənilir; əgər bu proses uzanarsa, ənənəvi cəmiyyətlərdə xüsusilə ailə böyükləri məsələyə müdaxilə etməyi zəruri hesab edirlər. Xüsusilə patriarxal strukturların üstünlük təşkil etdiyi toplumlarda uşaq sahibi olmamağın əsas səbəbi çox vaxt qadın hesab edilmiş və həll yolları da əsasən qadın üzərindən icra olunmuşdur. Bu çərçivədə, Azərbaycan və özbək mədəniyyətlərində uşaq sahibi ola bilməyən qadınlar üçün müxtəlif mərasim və tətbiqlər formalaşdırılmışdır.

**1.1.1. Mollaya götürmə və dua yazdırma**

Özbək mədəniyyətində din, sosial həyatın ayrılmaz bir hissəsi olmaqla, doğurqanlıqla bağlı ənənəvi inanclar da əsasən dini tətbiqlərlə formalaşmışdır. Uşaq sahibi ola bilməyən qadınların müraciət etdiyi ilkin üsullardan biri din xadimlərindən, yəni mollalardan (xocalardan) yardım almaqdır. Xalq arasında geniş yayılmış inanca görə, molla tərəfindən icra olunan mərasimlər və dualar doğurqanlıq problemlərinin həllində təsirli sayılır. Bu prosesdə molla ana namizədinə ağ kağız və ya ağ iplə dua oxuyur və bunları öz ocağında üç və ya yeddi gün ərzində yandırır. Ağ rəng burada xüsusi mənaya malikdir; saf, təmiz və xeyirli başlanğıcın simvolu hesab olunur. Xalq inanışına görə, fərqli rənglərdə istifadə olunan materiallar isə uğursuzluq gətirə bilər. Bundan əlavə, molla tərəfindən dua yazılmış kağızın suya qoyularaq ana namizədinə içdirilməsi də geniş yayılmış bir üsul hesab olunur (9, 131-132). Bu tətbiqin doğurqanlığı artıracağı və qadının bətnində bərəkətin artmasına səbəb olacağına inanılır. Belə üsullar, özbək xalq inanclarında dini elementlər ilə ənənəvi təbabət anlayışının iç-içə keçdiyini göstərir. Oxşar şəkildə, Azərbaycan mədəniyyətində də mollaya gedərək dua yazdırmaq ənənəsi geniş yayılmışdır və doğurqanlığı artırmaq məqsədilə müxtəlif dini mərasimlər icra olunur (İ-2, İ-3). Bu inanc çərçivəsində, Azərbaycan xalqında uşaq sahibi ola bilməyən qadınlar üçün tətbiq edilən ənənəvi mərasimlərdən biri, doğurqanlıqla bağlı təbiət elementləri və dini motivlərin birləşməsini əks etdirir. Xalq arasında yayılmış bu ritual belədir: uşaq sahibi olmaq istəyən qadın, dindar bir qadın tərəfindən bol bar verən bir ağacın ətrafında üç və ya yeddi dəfə dolandırılır. Burada sayların simvolik mənası nəzərə alınır; üç sayı müqəddəslik və bütövlüyü, yeddi sayı isə tamamlanmanı və bərəkəti ifadə edir. Mərasim zamanı qadının başına 40 dəfə ixlas surəsi oxunur və üzərinə düyü və ya buğda dənələri səpilir. Buğda və düyü xalq inanclarında bərəkət və çoxalma simvolu kimi qəbul edilir. Qırx sayı isə bir çox mədəniyyətlərdə mənəvi təmizlənmə, yetkinlik və prosesin tamamlanması mənasını daşıyır. İnanca görə, bu mərasimi səmimi-qəlbdən və inamla yerinə yetirən qadın, Allahın lütfü ilə uşaq sahibi olacaqdır (3, 117). Bu ritual, Azərbaycan xalq inanclarında doğurqanlıqla bağlı ənənəvi üsulların islami motivlərlə necə

harmoniyada tətbiq olunduğunu göstərir. Ritualın həm təbiət, həm də dini inanclarla formalaşan strukturu, fərdlərin sosial və mədəni yaddaşında doğurqanlığın vacibliyini vurğulayan kollektiv şüurun meydana gəlməsinə xidmət edir.

**1.1.2. Türbəyə götürmə**

Yeddi sayı bir çox mədəniyyətdə müqəddəs və tamamlayıcı bir dəyər daşıyır. Ənənəvi inanclara görə, kainatın nizamı və insanın inkişafı yeddi mərhələdən ibarətdir. Bu düşüncə özbək xalq mədəniyyətində də doğurqanlıqla bağlı üsul və rituallarda əks olunmuş, uşaq sahibi olmayan qadınlar üçün "Yeddi Övliya Türbəsinə" getmə ənənəsini formalaşdırmışdır. Xüsusilə Fərqanə bölgəsində, uşaq sahibi olmaq istəyən qadınlar ailələri ilə birlikdə yeddi fərqli türbəyə gedərək dualar oxuyur və nəzirlər verir. Bu ziyarətlər adətən çərşənbə axşamı və ya cümə günləri həyata keçirilir; türbələrdə bişirilən yeməklər isə yaxınlar və ehtiyacı olanlarla paylaşılır (9, 132). Bu ənənənin bərəkətin artmasına və doğacaq uşağın sağlam olmasına səbəb olacağına inanılır. Həmçinin, türbələrdən götürülən müxtəlif əşyalar (parça, daş, müqəddəs su və s.) evə gətirilərək qorunur və uşağın doğumu baş verdikdə ehtiyacı olanlara paylanır.

Türbə ziyarətləri, xalq inanclarında doğurqanlıqla bağlı ənənəvi praktikalar arasında mühüm yer tutur. Xüsusilə uşaq sahibi olmayan qadınlar və onların ailələri, müqəddəs hesab olunan məkanlara gedərək Allahdan övlad diləyirlər. Bu ziyarətlərin müqəddəs məkanların mənəvi atmosferi sayəsində duaların daha tez və asan qəbul olunacağı inancı ilə həyata keçirildiyi müşahidə olunur. Ziyarət zamanı niyyəti gücləndirmək məqsədilə nəzir və ehsanlar verilir, müxtəlif dini və simvolik mərasimlər icra olunur. Nəzirlər adətən xeyir işləri görmək, müəyyən müddət oruc tutmaq, qurban kəsmək və ya müqəddəs məkanlarda xüsusi duaları oxumaq şəklində olur. Xüsusilə türbələrdə yandırılan şamlar, paylanan yeməklər və oxunan dualar, diləyin həyata keçməsi üçün edilən mənəvi fəaliyyətlər arasında yer alır. Bu inanclar və tətbiqlər Azərbaycanda da geniş yayılmışdır və xalqın mədəni və dini həyatının vacib hissəsini təşkil edir (İ-7). Türbə ziyarətləri yalnız doğurqanlıqla bağlı deyil, həm də şəfa tapmaq, diləklərin qəbul olması və mənəvi rahatlıq axtarışı kimi məqsədlərlə həyata keçirilir. Bu mərasimlər fərdin imanını gücləndirir, ictimai həmrəyliyi artırır və kollektiv yaddaşda yer edən dini-mədəni rituallardan sayılır. Belə rituallar göstərir ki, doğurqanlıq yalnız fiziki hadisə kimi deyil, həm də mənəvi bir proses kimi qəbul edilir. Xalq inanclarına görə, övliyaların mənəvi qüvvəsi doğum prosesini asanlaşdıraraq ana namizədinə dəstək olur. Bu üsul və ənənələr yalnız fərdi inanc məsələsi deyil, həm də cəmiyyət daxilində həmrəyliyi və kollektiv şüuru gücləndirən elementlər kimi qiymətləndirilir.

**2. Doğum Sonrası Təcrübələrin Sosial və Mədəni Ölçüləri: Azərbaycan və Özbək Ənənələri**

Doğum, fərdin dünyaya gəlişi ilə yalnız bioloji proses kimi deyil, həm də sosial və mədəni mənalarla yüklü bir hadisə kimi qəbul edilir. Azərbaycan və özbək mədəniyyətində doğum, ailə strukturunun güclənməsi və nəslin davamı baxımından böyük əhəmiyyət kəsb edir və geniş iştiraklı mərasimlərlə qeyd olunur.

Bu kontekstdə, doğum sonrası tətbiqlər yalnız ana və uşağın sağlamlığına yönəlmiş praktikalarla məhdudlaşmır, həm də sosial həmrəyliyi gücləndirən və mədəni kimliyi ötürən elementləri özündə əks etdirir.

Azərbaycan və özbək ənənələrində uşağın dünyaya gəlişi böyük sevinc mənbəyi hesab olunur və bu hadisə demək olar ki, bayram ovqatında qeyd edilir. Ailə üzvləri və yaxın ətraf, yeni doğulmuş uşağı görmək və ailəyə dəstək olmaq məqsədilə bir araya gəlir. Bu proses zamanı qonaqlara müxtəlif təamlar təqdim edilərək həmrəylik ruhu möhkəmləndirilir. Doğumun ailənin neçənci övladına aid olduğuna baxmayaraq, hər yeni doğan fərd cəmiyyət üçün ayrıca bir dəyər daşıyır və onun üçün xüsusi mərasimlər təşkil olunur. Ənənəyə görə, qohumlar və qonşular hədiyyələrlə ailəni ziyarət edir; bu ziyarətlər doğumun yalnız fərdi hadisə olmadığını, əksinə cəmiyyətin ortaq sevincinin bir təzahürü olduğunu göstərir. Belə mərasimlər göstərir ki, doğum yalnız bioloji proses olmaqdan çıxaraq mədəni yaddaşı formalaşdıran və gələcək nəsillərə ötürülən bir fenomen kimi qəbul edilir. Azərbaycan və özbək xalqlarının doğum sonrası təcrübələri, kollektiv şüurun və ənənələrin davamlılığı baxımından vacib funksiyalar yerinə yetirir və sosial bağları möhkəmləndirən vasitə kimi önəmli rol oynayır.

**2.1. Söyüncü (xəbər vermə) / muştuluq vermə ənənəsi**

Söyüncü, özbək mədəniyyətində uşağın doğumunu ilk öyrənən şəxsin bu xoş xəbəri qohum-əqrəbaya, yaxınlara çatdırmaq funksiyasını yerinə yetirdiyi bir ənənədir. Bu şəxs doğum xəbərini çatdırdığı üçün sosial baxımdan təqdir olunur və adətən hədiyyələr və ya pul ilə mükafatlandırılır. Azərbaycan və özbək mədəniyyətində mövcud olan bu ənənə, hər iki cəmiyyətdə doğumun sevinc ilə qarşılanmasını və sosial bağların möhkəmləndirilməsini nəzərdə tutur. Özbəkistanda, doğumdan sonra ənənəvi olaraq atanın, doğulan uşağın cinsinə uyğun olaraq çiçək və ya ağac əkməsi, doğumun simvolik olaraq təbiətin davamlılığı ilə əlaqələndirilməsini təmin edir. Azərbaycanda isə "muştuluq vermə" adlanan praktika doğum xəbərinin ilk dəfə paylaşılması ilə başlayır və ilk muştuluq verən üçün hədiyyələr təqdim edilir və ya pul verilir (8, 354; 9, 133; İ-5; İ-9). Bu ənənəvi ənənələr, ailəni və cəmiyyəti bir araya gətirən, həmçinin mədəni mənalar daşıyan rituallar kimi xalq arasında davam etdirilir.

**2.2. Ad verilməsi təcrübəsi: mədəni və inanc ölçüləri**

Ad vermə ənənəsi Türk dünyasında köklü bir tarixə malikdir və fərdin şəxsiyyəti ilə birbaşa əlaqəli olan mühüm bir ritual kimi qəbul edilir. Ənənəvi inanca görə, verilən adın fərdin xarakterinə və taleyinə təsir etdiyi hesab olunur. Bu anlayış, adlandırma prosesinin təsadüfi olmayaraq böyük diqqətlə həyata keçirilməsini təmin etmiş və bu rituala dini, mədəni və sosial mənalar yükləməyə səbəb olmuşdur. Özbək və Azərbaycan türklərində ad vermə ənənəsi günümüzdə də canlı şəkildə davam edir və müəyyən qaydalar və mərasimlər çərçivəsində icra olunur. Hər iki mədəniyyətdə uşağa doğumdan sonra üç gün ərzində ad verilməsinin vacib olduğuna inanılır. Bu müddətin gecikməsi, özbək ənənəsində uşağın bədbəxt taleli, Azərbaycan ənənəsində isə yalancı olacağı inancını doğurur. Bu səbəbdən

adlandırma mərasimi böyük bir ciddiyyətlə həyata keçirilir. Ənənəyə görə, uşağa ad vermək üçün dini səlahiyyətli şəxs kimi qəbul edilən molla çağrılır. Molla müəyyən edilmiş adı üç dəfə yüksək səslə söyləyərək uşağı ataya təhvil verir. Bu tətbiq, adın müqəddəs sayılması və sosial qəbul baxımından mühüm bir mərhələdir.

Özbək cəmiyyətində, uşağa ad verməkdə onun fiziki xüsusiyyətləri və doğum şərtləri nəzərə alınır. Məsələn, bədənində xal olan oğlan uşaqlarına Holboy, Holbek; qız uşaqlarına isə Narhol, Ayhol kimi adlar verilir. Tünd rəngli dərisi olan oğlan uşaqlarına Korabek, əkiz doğulanlara isə adətən Zuhra və Fatma, ya da Həsən və Hüseyn adları uyğun görülür. Oxşar şəkildə, Azərbaycan mədəniyyətində də fiziki xüsusiyyətlərə əsaslanan adlandırma ənənəsi mövcuddur. Məsələn, tünd dərili qız uşaqlarına Əsmər, gözəl olanlara isə Gözəl adı verilməsi bu anlayışın əks olunmasıdır (9, 134; İ-8). Bundan əlavə, Azərbaycanda müasir adlar qədər dini və ailə böyüklərinin adlarının yeni nəsillərə ötürülməsi də geniş yayılmışdır. Xüsusilə ata, nənə kimi böyük adlarının yaşadılması, soy bağlarının və ailəvi dəyərlərin qorunmasına töhfə verir (6, 445). Oğlan uşaqlarına cəsarət, qəhrəmanlıq və igidlik çağırışı edən Aslan, Polad, Qorxmaz kimi adların verilməsi (İ-1; İ-11), cəmiyyətin güclü fərdlər yetişdirmək arzusunun göstəricisidir. Bu ənənəvi ad vermə təcrübələri, fərdin cəmiyyət içindəki şəxsiyyətinin formalaşmasında vacib rol oynayır və eyni zamanda mədəni irsin nəsildən-nəslə ötürülməsini təmin edir. Azərbaycan və özbək cəmiyyətlərində ad vermə yalnız fərdi seçim deyil, kollektiv yaddaşı və inanc sistemini qoruyan güclü mədəni ritual olaraq mövcudluğunu saxlayır.

### 2.3. Beşik toyu / Beşik götürmə ənənəsi: Doğum sonrası rituallarda beşiyin önəmi

Beşik toyu, qədim köklərə malik olan və həm özbək, həm də Azərbaycan mədəniyyətlərində mühüm yer tutan ənənəvi bir ritualdır. Uşağın dünyaya gəlməsindən sonra həyata keçirilən bu mərasim, doğum sonrası ənənələr arasında ailə və yaxınların iştirakı ilə keçirilən ən vacib adətlərdən biridir. Bu mərasimin əsas məqsədi, yeni doğulan uşağın sağlam böyüməsi və yaxşı gələcəyə malik olması üçün zəruri mədəni və simvolik addımların atılmasıdır.

Özbək türklərində Beşik toyu, uşağın doğumundan qırx gün sonra keçirilir. Doğumdan əvvəl beşik alınmır, çünki bunun uğursuzluq gətirəcəyi hesab edilir. Həmçinin, beşiyin alınması zamanı bazarlıq edilmir; çünki bazarlığın beşiyin bərəkətini poza biləcəyinə inanılır. Beşiyin təmin edilməsi mədəni baxımdan qız tərəfinə aiddir və qırx gün tamamlandıqdan sonra xüsusi mərasimlə beşik bəzədilərək hazırlanır. Mərasim zamanı uşağın yuyulması da mühüm mərhələdir. Yaşlı qadınlar tərəfindən həyata keçirilən bu yuma ritualında suya duz əlavə edilir və bərəkətin simvolu kimi buğda dənələri, qızıl və ya gümüş əşyalar suya atılır (9, 134). Uşağın sağlam və güclü olması məqsədilə keçirilən bu ritual, kollektiv yaddaşın bir hissəsi kimi nəsildən-nəslə ötürülür.

Azərbaycan mədəniyyətində də oxşar bir anlayış mövcuddur. Beşik doğumdan əvvəl alınmır; çünki bunun uğursuzluq gətirəcəyi, beşiyin boş qala biləcəyi və ya uşağın sağlamlığının təhlükəyə düşəcəyi, hətta ölə biləcəyi hesab olunur. Buna görə beşik yalnız doğumdan sonra, qızın anası tərəfindən təmin edilir (İ-6; İ-10). Beşiyin alınması və bəzədilməsi prosesi, ailənin yeni üzvünə yönəlik qulluq və qoruma rituallarının bir hissəsi kimi qəbul olunur.

Özbək mədəniyyətində Beşik toyu, Azərbaycan mədəniyyətində Beşik götürmə kimi tanınan ritual, doğum sonrası keçid mərasimləri çərçivəsində sosial həmrəyliyin güclənməsinə töhfə verən bir ənənə olaraq əhəmiyyətini qoruyur. Beşik və uşaqla bağlı bu inanclar yalnız fiziki baxım prosesini deyil, həm də mədəni simvolların yaşadılmasını və cəmiyyətin ortaq dəyərlərinin qorunmasını təmin edir.

**2.4. Albastı ilə bağlı rituallar: Doğum sonrası pis ruhlardan qorunma inancları**

Doğum sonrası dövrdə ananın və uşağın sağlamlığını təhdid edə biləcəyi düşünülən pis ruhlar, türk xalq inanclarında mühüm yer tutur. Xüsusilə Albastı, həmçinin Alvastı, Alarvadı, Alqarısı kimi adlandırılan bu pis ruh, zahı (lohusa) qadınlara təsir göstərərək onların həm fiziki, həm də mənəvi vəziyyətini pozacağına inanılan bir varlıqdır. Bu inancların kökləri islamdan əvvəlki dövrlərə qədər uzanır və günümüzdə də xalq arasında müxtəlif qorunma ritualları ilə yaşamaqdadır. Albastının zahı qadının ciyərini götürərək öz övladlarını bəslədiyinə inanılır. Bu səbəbdən, doğum edən qadın və yeni doğulmuş uşağın qorunması məqsədilə müxtəlif ənənəvi üsullar inkişaf etdirilmişdir.

Özbək mədəniyyətində Albastıdan qorunmaq üçün lohusa qadının mollaya aparılıb musqa yazdırması geniş yayılmış bir ritualdır. Yazılmış musqa, ananın yastığının altına qoyulur və çörəklə birlikdə saxlanılır; bunala da pis ruhların yaxınlaşmasının qarşısının alınacağına inanılır (9, 134). Oxşar inanclar Azərbaycan mədəniyyətində də müşahidə olunur. Zahı qadın Albastının hücumuna qarşı həssas bir dövrdə olduğu üçün 40 gün boyunca tək buraxılmamalıdır. Ananın yastığının altına pis ruhları uzaqlaşdıracağı düşünülən dəmir, qayçı, bıçaq və Quran kimi əşyalar yerləşdirilir. Həmçinin, uşağın beşiyinə qırmızı rəngli bir lent və ya yaylıq asılır ki, Albastının uşağa zərər verməsinin qarşısı alınsın. Bu əşyaların qoruyucu qalxan funksiyasını yerinə yetirdiyi və pis ruhları caydırdığına inanılır. Eyni zamanda, Albastının ana və uşağın ciyərini almaması üçün bu dövrdə müəyyən ritualların diqqətlə həyata keçirilməsi zəruri hesab olunur (5, 135-138; 7, 129).

Bu inanclar və rituallar, doğum sonrası dövrdə ananın və uşağın qorunmasına yönəlmiş ənənəvi xalq bilikləri ilə formalaşmış və cəmiyyətin mədəni yaddaşında möhkəm yer tutmuşdur. Müasir tibbin inkişafı ilə bu inancların elmi əsaslarla izahı azalmış olsa da, xalq arasında qorunma ritualları kimi hələ də yaşamaqdadır.

**Nəticə**

Azərbaycan və Özbək xalq mədəniyyətlərində doğum ritual və ənənələri, həm ictimai quruluşun, həm inanc sistemlərinin, həm də mədəni irsin əks olun-

masıdır. Hər iki toplumda doğum yalnız bioloji bir hadisə kimi deyil, eyni zamanda mənəvi və sosial bir proses kimi qiymətləndirilir və ana ilə uşağın qorunması üçün müxtəlif üsullar həyata keçirilir. Bu ritual və ənənələrin bəziləri islami təriqətlər çərçivəsində formalaşmış, bəziləri isə qədim türk inanclarının izlərini daşıyır. Müasir dövrdə tibb elmləri və müasir tibbi yanaşmalar doğum prosesinə dair bir çox ənənəvi tətbiqin zəruriliyini sual altına alsa da, xalq inancları və ritual praktikalar hələ də güclü şəkildə yaşamaqdadır. Məsələn, qırxlama kimi ritualların psixoloji və sosial aspektləri nəzərə alındıqda, bunların yalnız batil inanclar olmadığı, eyni zamanda sosial həmrəyliyi gücləndirən elementlər olduğu müşahidə olunur. Bununla belə, bəzi ritual və tətbiqlərin müasir tibbi yanaşmalarla ziddiyyət təşkil etdiyi də reallıqdır. Məsələn, doğum sonrası ana və uşağın 40 gün boyunca tam şəkildə xarici dünyadan izolyasiya edilməsi praktikası müasir sağlamlıq anlayışı baxımından mübahisəlidir.

Ənənəvi doğum ritual və tətbiqləri müasir tibbi biliklərin işığında yenidən qiymətləndirilməli və zərərli ola biləcək praktikalar təxirə salınmalıdır. Mədəni irsin qorunması məqsədilə, doğum ritual və ənənələrinin akademik tədqiqatlara mövzu olması, yazılı formada qeydə alınaraq gələcək nəsillərə çatdırılması vacibdir. Xalq arasında doğum ritual və ənənələrinə dair maarifləndirmə işləri aparılmalı, dini və mədəni elementlər elmi çərçivədə təhlil edilməlidir. Müasir doğum praktikaları ilə ənənəvi ritual və tətbiqlər arasında balans qurulmalı, mədəni kimliyi qoruyaraq sağlam doğum prosesi dəstəklənməlidir.

Nəticə olaraq, Azərbaycan və özbək xalq mədəniyyətlərindəki doğum ritual və ənənələri, toplumların mədəni yaddaşını və kimliyini əks etdirən mühüm elementlərdir. Bu ənənələrin elmi yanaşma ilə sintezi həm mədəni irsin yaşadılmasına, həm də ana və uşağın sağlam bir proses keçirməsinə imkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. Bourdieau, Pierre. Outline of a Theory of Practice. Cambridge University Press, 1977.

2. Durkheim, Emile. The Elementary Forms of the Religious Life. George Allen & Unwin, 1912.

3. Memmedova, M. Azerbaycan Kültüründeki Doğum Ritüellerinde İslam'ın Etkisi. I. Uluslararası Kafkasyada İslam ve Medeniyet Sempozyumu, Kars: 2024, s. 108-121.

4. Memmedova, M. Balkanlardan Azerbaycan`a Türk Halk Kültüründe Doğum Ritüelleri. 2. Uluslararası Balkanlarda Türkçe Öğretimi ve Türkoloji Sempozyumu Bildiri Kitabı, İstanbul: 2024, s.645-665.

5. Memmedova, M. Azerbaycan ve Anadolu Folklorunda Kırkbasma ve Albasmadan Korunma Ritüel ve Uygulamaları. Klasik Divan Dil, Kültür ve Edebiyat Araştırmaları Dergisi, C.1- S.1/1, 2024, s.128-142.

6. Memmedova, M. Nahçıvan ve Kars Folklorunda Doğum Ritüelleri ve İnançları. II. Uluslararası Türkiyat Kongresi, Çankırı: 2023, s.434-450.

7. Məmmədova, M., Mirzəyeva, Q. Azərbaycan və Anadoluda Qırxtökmə Mərasimilə Bağlı Adət-Ənənələr və İnanclar. Uluslararası Dede Korkut, Türk Kültürü, Tarihi ve Edebiyatı Kongresi. Guba: 2023 s.124-134.

8. Morad, N. Afganistan'ın Tahar İlindeki Özbek Türklerinin Halk Âdet ve İnançlarında Doğum. Uluslararası. Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD). 5. Cilt, 2. Sayı, 2021, s. 344-356.

9. Solmaz, E. Özbek Halk Kültüründe Doğum ile İlgili Pratikler. Uluslararası Folklor Akademi Dergisi. Cilt:1, Sayı:1, 2018, s.127-136.

10. Turner, Victor. The Ritual Process: Structure and Anti-Structure. Aldine Transaction, 1969.

11. Van Gennep, Arnold. The Rites of Passage. University of Chicago Press, 1909, s. 25-42.

12. Yeşil, Y. Türk Dünyasında Geçiş Dönemi Ritüelleri. Ankara: 2014.

## İNFORMATORLAR

İ-1. Abbasova Nailə Paşa qızı, 1982, Naxçıvan MR, Şərur rayonu, orta təhsilli, ev xanımı.

İ-2. Əkbərova Sevinc Cavad qızı, 1971, Naxçıvan MR, Ordubad rayonu, Y. Əylis kəndi, orta təhsilli, iş xanımı.

İ-3. Əkbərova Aynur Cavad qızı, 1975, Naxçıvan MR, Ordubad rayonu, Y. Əylis kəndi, orta təhsilli, aşbaz.

İ-4. Əsədova Könül Hüsaməddin qızı, 1983, Naxçıvan şəhri, ali təhsilli, Şahbuz dayonu Qeydiyyat şöbəsi müdürü.

İ-5. Əsədova Xurşus İbrahim qızı, 1962, Naxçıvan MR, natamam ali təhsilli, ev xanımı.

İ-6. Xanlarova Günay Pənah qızı, 1987, Füzuli şəhri, atamam ali təhsilli, kitabxana işçisi.

İ-7. Hüseynli Leyla Əzim qızı, 1982, Naxçıvan MR, Kəngərli rayonu, Qıvraq kəndi, ali təhsilli, ev xanımı.

İ-8. Hüseynova Gözəl Adıgözəl qızı, 1945, Naxçıvan MR, Ordubad rayonu, Y.Əylis kəndi, orta təhsilli, evdar xanım.

İ-9. İmanova Vəfa Qurban qızı, 1986, Naxçıvan MR, Ordubad rayonu, Y. Əylis kəndi, orta təhsilli, evdar xanım.

İ-10. Mirzəyeva Qumral Nizami qızı, 1987, Naxçıvan MR, Ordubad rayonu, Y.Əylis kəndi, ali təhsilli, elmi işçi, araşdırmaçı.

İ-11. Nəcəfova Səltənət Yusif qızı, 1961, Naxçıvan MR, Ordubad rayonu, Anabad kəndi, natamam ali təhsilli, tibb bacısı.